

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 52 (23.464)

*17 mart 2020-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul edib.

Ölkəmizdə həyata keçirilən sosial islahatlardan danışan Prezident İlham Əliyev sosial sahədə aparılan islahatların bu il də davam etdirildiyini, həmin genişmiqyaslı islahatların, nəticə etibarilə, Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində atılan önəmli addımlar olduğunu vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, xüsusilə keçən il 4 milyondan artıq Azərbaycan vətəndaşının maddi rifahı yaxşılaşdırıldı, çox böyük sosial paket icra edildi. Bu, bir daha onu göstərir ki, Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır və maddi imkanları hələ də məhdud olan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevə sosial paket, xüsusilə vətəndaşların pensiya təminatındakı islahatlar barədə geniş məlumat verib.

Dövlətimizin başçısı ölkə vətəndaşlarının sosial vəziyyətinin daha da yaxşılaşdırması ilə əlaqədar tapşırıqlar verib.

## "Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında
## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq arxiv işi sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi bu Sərəncamla təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və icrası ilə bağlı ildə bir dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 mart 2020-ci il*

## Naxçıvanda qayğıya ehtiyacı olanlara mənzillər təqdim olunub

Martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində şəhid ailəsinə və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda sağlamlıq imkanlarını qismən itirmiş şəxsə yeni mənzillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsinə, onların cəmiyyətə inteqrasiyasına xüsusi qayğı ilə yanaşılır. Cari ildə müvafiq kateqoriyalı 157 şəxsin bərpa mərkəzlərində müalicələri təşkil edilmiş, 35 şəxsə müalicə müəssisələrinə göndəriş verilmiş, 4 ailəyə fərdi yaşayış evləri və mənzillər, 11 nəfərə minik avtomobilləri təqdim edilmişdir. Həyata keçirilən tədbirlərin davamı olaraq bu gün Novruz bayramı ərəfəsində 1 şəhid ailəsinə və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda sağlamlıq imkanlarını qismən itirmiş 1 şəxsə yeni mənzillər təqdim olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mənzillə təmin olunanları təbrik edərək demişdir: Bu gün şəhid ailəsinə, eləcə də Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda sağlamlığını qismən itirmiş şəxsə yeni



mənzillərin verilməsi Azərbaycanda dövlətçiliyin möhkəm təməllər üzərində qurulduğunu göstərir. O yerdə dövlətçilik haqqında danışmaq olar ki, həmin ölkədə dövlət-xalq birliyi olsun. Dövlətin ərazi bütövlüyü uğrunda sağlamlığını itirmiş, vətənpərvərlik göstərmiş şəxslərə, şəhid ailələrinə diqqət və qayğısı digər vətəndaşlar üçün də nümunədir.

Ali Məclisin Sədri demişdir: Azərbaycanda sabitlik, inkişaf və tərəqqi vardır. Bunlar da ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir. Ölkəmiz inkişaf edir, qayğıya ehtiyacı olan insanlara diqqət göstərilir, əməyi ilə fərqlənənlərə dövlət mükafatları verilir. İnsanlarımız rahat yaşayır, yeni iş yerləri açılır, əhalinin rifahı yaxşılaşdırılır. Bunların hamısı ölkəmizin inkişafına, gələcəyinə xidmət edən işlərdir.

Ali Məclisin Sədri mənzillə təmin olunanlara qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırmış, orderləri təqdim etmişdir.

Şəhid anası Firəngiz Rüstəmova göstərilən qayğıya görə minnətdarlıq etmişdir. Mənzil təqdim olunan Sədrəddin Əsədov demişdir: "Bu gün – Novruz bayramı ərəfəsində bizə yeni mənzil verilir. Göstərilən bu qayğı ailəmizə ikiqat bayram sevinci yaşadır. Veteranlar və öz adımdan minnətdarlığımı bildirirəm".

Naxçıvan şəhərində yerləşən iki və üçotaqlı mənzillər təmir olunaraq lazımi şərait yaradılmış, xalça hədiyyə edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltiflərin təqdimatı olub



Martın 16-da Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikasının fəxri adlarının və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik, inkişaf və tərəqqi vardır. Sabitlik, inkişaf və tərəqqi olan yerdə isə insanların əməyinə qiymət verilir, onlar dövlət mükafatları ilə təltif olunurlar. Bu gün təltif olunanlar da çalışdıqları sahələrdə fərqlənən insanlardır.



Ali Məclisin Sədri yüksək dövlət mükafatlarına layiq görülməłəri və qarşıdan gələn Novruz bayramı münasibətilə təltif olunanları təbrik etmiş, fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərini, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatını təqdim etmişdir.

Təltif olunanlardan Nazlı Hüseynquliyeva, Nüşabə Məmmədova, Yaşar Vəliyev, Kazım Bayramov, İlham Hüseynov, Əli Şabanov, Rahidə Quluyeva, Zakir Abbasov, Zəriş Abbasova, Məryəm Hüseynova, Nəsibə Hacıyeva və Ruhiyyə Hüseynova əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq etmişlər. Qeyd olunmuşdur ki, muxtar respublikada bütün sahələrdə yaradılan şərait səmərəli fəaliyyət üçün geniş imkanlar açır. Qarşıda duran əsas vəzifə bundan sonra da

*Ardı 2-ci səhifədə*

ölkə Prezidenti tərəfindən davam etdirilən ulu öndər Heydər Əliyev siyasi xəttinə sadiq qalmaq, müstəqilliyimizin və dövlətçiliyimizin inkişafına töhfə verməkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatına layiq görülən Zahid Qənbərov demişdir: “Muxtar respublikada gənclərə böyük diqqət və qayğı göstərilir. 2006-cı ildə yüksək bal toplamış tələbələrlə görüşdə Ali Məclisin Sədri tərəfindən mükafatlandırılan tələbələrdən biri də mən olmuşam. Qürur duyuram ki, bu gün də mənə Ali Məclis Sədrinin mükafatı təqdim olunur. Bu, bütövlükdə, gəncliyə və elmə verilən qiymətdir. Çalışdığım kollektiv və gənclər adından minnətdarlığımı bildirirəm. Bundan sonra da muxtar respublikamızın inkişafı yolunda səylərimi əsirgəməyəcəyəm”.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı

## 1. Ümumi müddəalar

Naxçıvan Muxtar Respublikasının dövlət arxivləri arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə qəbulunu, qeydiyyatını və etibarlı qorunmasını, eləcə də cəmiyyətin bu informasiyaya tələbatının ödənilməsi sahəsində vəzifələri həyata keçirir. Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin tabeliyində 1 şəhər və 7 rayon dövlət arxivi fəaliyyət göstərir.

Qəbul edilmiş normativ-hüquqi aktlar arxiv işi sahəsində qabaqcıl təcrübəyə uyğun təkmilləşdirilmə işinin aparılmasını, arxiv fondu sənədlərinin informasiya və kommunikasiya texnologiyalarını tətbiq etməklə daha etibarlı mühafizəsinin təmin edilməsini, dövlət arxivlərinin infrastrukturunun və maddi-texniki bazasının, peşəkar kadr potensialının möhkəmləndirilməsini zəruri edir. “Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı” (bundan sonra - Dövlət Proqramı) da bu məqsədlə həyata keçirilməli olan zəruri tədbirləri müəyyənləşdirir.

## 2. Dövlət Proqramının məqsədi

Dövlət Proqramının məqsədi arxiv işi sahəsində həyata keçirilən islahatların davamlılığını, dövlət arxiv təşkilatlarının fəaliyyətinin təkmilləşdirilməsini, cəmiyyətdə arxiv işinin rolunun artırılmasını, arxiv fonduna aid sənədlərin toplanılmasını, sistemləşdirilməsini, dövlət mühafizəsinə daimi qəbulunu, qeydiyyatını və onlardan səmərəli istifadəni təmin etməkdən ibarətdir.

## 3. Dövlət Proqramının əsas istiqamətləri

3.0. Dövlət Proqramında arxiv işinin 2020-2025-ci illərdə aşağıdakı əsas istiqamətlərdə inkişaf etdirilməsi nəzərdə tutulur:

3.0.1. arxiv işi sahəsində dövlət nəzarətinin gücləndirilməsi, səmərəli idarəetmənin təşkili və kadr potensialının təkmilləşdirilməsi;

3.0.2. dövlət arxivlərinin informasiya potensialının zənginləşdirilməsi və göstərilən xidmətlərin çeşidinin artırılması;

3.0.3. arxiv fondu sənədlərinin rəqəmsallaşdırma yolu ilə etibarlı mühafizəsinin təşkili;

3.0.4. arxiv işinin yeni texnologiyalar tətbiq etməklə müasir tələblər səviyyəsində qurulması, elektron arxiv məlumat sisteminin yaradılması və onun dövlət informasiya ehtiyatlarına və sistemlərinə inteqrasiyasının təmin edilməsi;

3.0.5. arxiv işi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, digər ölkələrin arxivlərində, muzeylərində və kitabxanalarında Naxçıvanla bağlı saxlanılan sənədlərin (surətlərinin) aşkar edilərək muxtar respublikaya gətirilməsi;

3.0.6. arxiv sahəsində çalışan işçilərin informasiya texnologiyaları, arxiv işi, arxivşünaslıq, sənədşünaslıq sahələrində elmi biliklərinin və peşə bacarıqlarının artırılması.

## 4. Gözlənilən nəticələr

4.0. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

4.0.1. arxiv işinin müasir tələblərə uyğun təşkilinin təmin olunması, daha çevik idarəetmə sisteminin formalaşdırılması və bu sahədəki fəaliyyətə dövlət nəzarətinin gücləndirilməsi;

4.0.2. dövlət arxivlərinin arxiv fondu sənədləri ilə mütəmadi komplektləşdirilməsi, qeydiyyatı və etibarlı mühafizəsi;

4.0.3. arxiv fondunun kataloq sistemini elektronlaşdırmaqla, informasiya-axtarış imkanlarının genişləndirilməsi;

4.0.4. dövlət arxivlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi;

4.0.5. arxiv işçilərinin peşə hazırlığının təkmilləşdirilməsi, dövlət arxivlərinin ixtisaslı kadrlarla təmin olunması;

4.0.7. arxiv işi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

## 5. Dövlət Proqramının maliyyə təminatı

Dövlət Proqramının maliyyə təminatını dövlət büdcəsindən ayrılan vəsait və qanuna zidd olmayan digər mənbələr təşkil edir.

## 6. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| № | Tədbirin adı | İcraçı orqan | İcra müddəti |
|---|---|---|---|
| 6.1. | Dövlət arxivlərində fəaliyyətin müasir prinsiplər əsasında qurulması, arxiv sahəsində çalışan əməkdaşlar üçün seminar və tematik təlimlərin keçirilməsi | Dövlət Arxiv İdarəsi | 2020-2025 |
| 6.2. | Arxiv işi, arxivşünaslıq, sənədşünaslıq sahələri üzrə ixtisaslı kadrların hazırlanması üçün təhsil və elmi müəssisələrlə (təşkilatlarla) qarşılıqlı əməkdaşlığın genişləndirilməsi | Dövlət Arxiv İdarəsi, ali təhsil müəssisələri, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi | 2020-2025 |
| 6.3. | Arxiv fondu sənədlərinin idarə arxivlərində qanunvericiliklə müəyyən edilən müddətdə mühafizəsinin təşkili, daimi dövlət mühafizəsinə təhvil vermək üçün seçilən sənədlərin işlənilməsi sahəsində görülən işlərin təkmilləşdirilməsi | Dövlət Arxiv İdarəsi | 2020-2025 |
| 6.4. | Arxiv fondu sənədlərinin etibarlı mühafizəsi və səmərəli istifadəsi üçün arxiv işində yeni texnologiyalardan istifadənin genişləndirilməsi və yeni innovativ metodların tətbiqi | Dövlət Arxiv İdarəsi, Rabitə və Yeni Texnologiyalar Nazirliyi | 2020-2025 |
| 6.5. | Arxiv fondu sənədlərinin rəqəmsallaşdırılması üçün zəruri infrastrukturun qurulması | Dövlət Arxiv İdarəsi, Rabitə və Yeni Texnologiyalar Nazirliyi | 2020-2021 |
| 6.6. | Dövlət arxiv təşkilatlarının əsas istiqamətlər üzrə fəaliyyətinin avtomatlaşdırılması:<br>-arxiv fondlarının elektron fond kataloqunun yaradılması;<br>-istifadə olunan arxiv fondu sənədlərinin elektron qeydiyyat sisteminin yaradılması;<br>-arxiv fondunun komplektləşdirmə mənbəyi olan təşkilatların elektron reyestrinin yaradılması;<br>-elektron arxiv məlumat bazasının və arxiv sənədlərinin ehtiyat fondunun (serverin) yaradılması;<br>-arxiv fonduna məxsus nadir və xüsusi qiymətli sənədlər də daxil olmaqla, bütün növ sənədləri özündə əks etdirən elektron arxiv reyestrinin yaradılması | Dövlət Arxiv İdarəsi, Rabitə və Yeni Texnologiyalar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti | 2020-2025 |
| 6.7. | Mövcud şəbəkə, ştat və ayrılmış vəsait çərçivəsində daimi dövlət mühafizəsinə qəbul edilən elektron sənədlərin mühafizəsi, uçotu və istifadəsi məqsədilə Dövlət Arxiv İdarəsinin tabeliyində Elektron Sənədlər Mərkəzinin yaradılmasına dair təkliflərin hazırlanması | Dövlət Arxiv İdarəsi | 2023 |
| 6.8. | “ASAN xidmət indeksi”nin tələblərinə uyğun olaraq arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların və ya onların təsdiq olunmuş surətlərinin bir pəncərə sistemi üzərindən verilməsi | Dövlət Arxiv İdarəsi, “ASAN xidmət” Mərkəzi | 2020-2025 |
| 6.9. | Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, eləcə də digər idarə, müəssisə və təşkilatlarda arxiv işinin düzgün qurulması, müvəqqəti mühafizə müddəti bitdikdən sonra arxiv fondu sənədlərinin komplektləşdirilərək Dövlət Arxiv İdarəsinə təhvil verilməsi | Dövlət Arxiv İdarəsi, aidiyyəti orqanlar | 2020-2025 |
| 6.10. | Dövlət arxiv fondu sənədlərindən istifadə və sənədlərin fonda qəbulu qaydalarının yenidən hazırlanması və tətbiqi | Dövlət Arxiv İdarəsi | 2020-2021 |
| 6.11. | Rayon (şəhər) dövlət arxivləri üçün yeni arxiv binalarının tikilməsi və ya mövcud arxiv binalarının yenidən qurulması | Dövlət Arxiv İdarəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2020-2025 |
| 6.12. | Dövlət arxivlərində arxiv işinin müasir tələblərə uyğun aparılması üçün zəruri proqram təminatlarının, məlumat bazalarının və idarəetmə sistemlərinin alınması, formalaşdırılması və tətbiqi | Dövlət Arxiv İdarəsi, Rabitə və Yeni Texnologiyalar Nazirliyi | 2020-2025 |
| 6.13. | Dövlət arxivlərinin kağız əsaslı sənədlərinin sürətli skan və surətçıxarma aparatları, eləcə də kino-foto-fono sənədlərinin kimyəvi təmizlənməsi, yuyulması və üzünün köçürülməsi üzrə zəruri texniki vasitə və avadanlıqla təmin edilməsi | Dövlət Arxiv İdarəsi, Rabitə və Yeni Texnologiyalar Nazirliyi | 2020-2025 |
| 6.14. | Xarici ölkələrin arxivlərində, muzeylərində və kitabxanalarında Naxçıvanla bağlı saxlanılan sənədlərin (surətlərinin) aşkar edilərək Naxçıvan Muxtar Respublikasına gətirilməsi, uçotu və mühafizəsinin təmin olunması | Dövlət Arxiv İdarəsi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi | 2020-2025 |
| 6.15. | Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının yerləşdiyi ölkələrin arxivlərində Naxçıvana aid sənədlərin aşkar edilməsi üzrə işin aparılması | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi | 2020-2025 |

# Ötən ay 75 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən fevral ayında daxil olan müraciətlərə əsasən cəmi 75 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 69-u əhali və 6-sı isə qeyri-əhali abonentlərdir.



Fevral ayında qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursunu bitirən müdavimlərə sertifikat verilmişdir.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, 1 mart 2020-ci il tarixə cəmi 20 min 91, o cümlədən cari ilin fevral ayında 16 qaz sayğacı quraşdırılmışdır. Bu işlər davam etdirilir. Yaşayış məntəqələrində, yerli icra hakimiyyəti, hüquq-mühafizə nümayəndələri və şəhər, rayon qaz istismar idarələrinin işçiləri ilə birgə reydlər intensiv olaraq keçirilmiş, aşkarlanmış nöqsanlara və sayğaca müdaxiləyə görə 3 abonentə cərimə tətbiq olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

*Xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlərini, mədəniyyətini özündə əks etdirən Novruz bayramı çox qədim tarixə malikdir. Baharın gəlişini – varlığın canlanmasını, ana təbiətin "dirilmə"sini yeni ilin, yeni günün başlayacağını müjdələyən Novruza xalqımız Kiçik çillə çıxdıqdan sonra, bayrama bir ay qalmış hazırlaşmağa başlayır. Ev-eşikdə, həyət-bacada səliqə-sahman işləri görülür, arxlar, çay kənarları təmizlənir, əkiləcək toxumlar saf-çürük edilir, çərşənbə tonqalları üçün çır-çırpı, odun yığılıb saxlanılır.*

### Xalq təqvimi

# Od çərşənbəsi

## *Xalqımızın pak ruhundan od alan ocağımız gur yansın, süfrələrimizdən ruzi-bərəkət əskik olmasın*



*"Od çərşənbəsi"*
*Rəssam Həbibə Allahverdiyeva*

Novruzun gəlişini böyük sevinc və səbirsizliklə gözləyən xalqımız bayrama dörd həftə qalmış hər çərşənbə axşamını təmtəraqla qeyd edir. Həmin çərşənbələr bunlardır: Su, Torpaq, Yel (külək) və nəhayət, sonuncu – Od çərşənbəsi. Od çərşənbəsinə xalq arasında "üskü çərşənbə", "üskü gecəsi", "addı çərşənbə" də deyirlər.

İlin sonuncu çərşənbəsi həm də "İlaxır çərşənbə" adlanır. Bu çərşənbəyə xüsusi hazırlıq görülər, evlər al-əlvan bəzədilər, döşəməyə rəngarəng xalça-palaz salınar. Ailənin hər bir üzvü təpədən-dırnağa təzə geyinər. Hamı bu günü bayram edər. İmkansız ailələrə qohum-əqrəbası, qonum-qonşusu əl tutar ki, kimsənin bayramı boş keçməsin.

Bu əziz gündə hər kəsin evində cürbəcür yeməklər bişirilər, soğan qabığı ilə yumurtalar boyanar, bol nemətlərlə bəzədilən bayram süfrələri açılar. Muxtar respublikanın rayonlarında bayram süfrəsinə maş çöçəsi, nimçə dəstənası, quru ərik kompotu, boyanmış bayram yumurtaları, "yeddiləvin"lə, yəni quru meyvə və çərəzlərlə bəzədilmiş xonçalar və digər təamlar düzülər. Həmin süfrənin şahı isə plov hesab olunur. Qaralı, sarıçiçəkli plovlar dəmlənər, üstünə xoruz, quş əti qoyular. Plovu dəmləməmişdən öncə bir ovuc düyünü götürüb atarlar evin damının üstünə ki, bu da quşların ruzisidir. Qoy quşlar da bayram etsin. Onların da payı tutular. İnanca görə, sonuncu çərşənbəni hər kəs öz ocağında keçirməli, öz evində bayram etməli, doğmaları ilə bərabər olmalıdır. Səfərlər, vacib işlər bayramdan sonraya saxlanmalıdır. Deyilənə görə, bu əziz günü evində bayram etməyən, onu ocağında qarşılamayan yeddi il evindən, doğma adamlarından ayrı düşər. Adətə görə, süfrə açılanda əziz bayramı öz evində keçirə bilməyənin də adına pay qoyular. Süfrəyə əyləşməzdən əvvəl bişirilmiş bayram çöçələrindən, dəmlənmiş plovdan da qonum-qonşuya pay tutular.

Doğma diyarımızın bir sıra rayonlarında İlaxır çərşənbə "Baca-baca" adı ilə də tanınır. Məlumdur ki, keçmiş dövrlərdə dam-daşlar (evlər) palçıqdan tikilər, damların üstünə bacalar qoyulardı. Belə damlarda, demək olar ki, pəncərə az olar və yaxud da ki, heç olmazdı. Bacalar pəncərəni əvəz edər, onlar vasitəsilə evlərə işıq düşərdi.

İlaxır çərşənbənin bəzi rayonlarımızda həm də "Baca-baca" adlandırılması isə həmin günə məxsus "bacadan şalsallama" adəti ilə əlaqədardır. Belə ki, Od çərşənbəsində axşam tonqallar alışdırıldıqdan sonra cavanlar, həmçinin adaxlı oğlanlar, uşaqlar dəstə halında damları gəzər, bayram payı almaq məqsədilə bacalardan evlərə şal, torba, papaq sallayardılar. Adaxlı olanlar nişanlısının evindən – bayram süfrəsindən pay umar, gözə görünməsin deyə, bacaya çıxıb şalını sallayar, pay gözləyərdilər. Nənələrimiz, analarımız bacadan evə sallanan torbalara meyvə qurusu, cəviz, badam, noğul, çöçə, boyanmış yumurta, süfrəsində nə varsa, nəyə gümanı gəlirsə, qoyub ağzını bağlayar, torba sallayan payını yuxarı, bacaya çəkib alardı. Yer-yeməli ilə yanaşı, torbalara başqa əşyalar da – bayramçalıq da qoyulardı. "Bacadan şalsallama" adı ilə tanınan bu mərasim "papaqatdı", "dəsmalatdı", "torbaatdı" adları ilə günümüzdə də yaşadılır. Sadəcə olaraq indi bacaları evlərin qapıları əvəz edir. Papaq atanlar görünməsinlər deyə, qapını döyüb tez gizlənər, ev yiyəsi döyülən qapıları yubanmadan açar, atılan dəsmallara, papaqlara bayram sovqatı qoyar. Papaq atanlar paylarını alıb digər qapıları gəzərlər.

Novruzun ən çox sevilən ərəfəsi – İlaxır çərşənbə Ordubad rayonunda "yeddiləvin" də adlandırılır. Sonuncu çərşənbə axşamı oğlan evinin qız evinə apardığı şirninin içərisində onun müxtəlif növlərindən olur. Buna görə də şirni növünün çoxluğunu göstərmək məqsədilə ona "yeddilövün", "yeddiləvin" adı verilib. "Yeddiləvin" günü süfrələrə cürbəcür nemətlər düzülür ki, bunlar da, əsasən, 7 adda olmalıdır.

İlaxır axşamı qapı-baca açıq saxlanar. Bu axşam hər evdən çal-çağır səsi gələr. Elə ki qaranlıq düşdü, ərgən qızlar və yaxud könlündə bir istəyi olanlar dəstə-dəstə "qulaq falı"na çıxarlar. Niyyətlərini tutub, hərə bir qapıya qulaq verər. Əgər evdən yaxşı söz eşidilsə, qapı pusan inanar ki, niyyəti qəbuldur və sevincək qapını açıb içəri girər ki, mən sizin qapını pusmağa gəlmişdim, yaxşı söz eşitdim. Qulaq falını təkcə qız-gəlinlər etməz. Gənc oğlanlar da dostları ilə birgə istədiyi, gözaltı etdiyi qızın evinin damına çıxar, bacadan evə qulaq verər. Əgər eşitdiyi söz-sov yaxşıdırsa, xeyirdirsə, onda oğlan həmin qapıya elçisini göndərər. Elə bütün bunlara görə də həmin axşam hamı çalışar yaxşı, xeyirli söz danışsın ki, qapıya qulaq falına gələnlər kor-peşman qayıtmasınlar.

Od çərşənbəsi günü, hava qaralana macal hər evdə, hər qapıda tonqal qurular. Bu bayram axşamı ən çox uşaqlar sevinər. Əl-ayaqda uşaqlar olar. Belə bir qayda var ki, qaranlıq düşəndə kənddə, məhəllədə hamı eyni zamanda tonqalını yandırar. Bunun üçün kiçik bir oğlan uşağı damın üzərinə çıxar, kəndi seyr edib görsə ki, həyətlərdə tonqallara od vuruldu, dərhal xəbər verər, ailə də həyətində öz tonqalını alışdırar. Adətə görə, yanar tonqalın başına, istisinə, işığına ailə üzvlərinin hamısı yığılmalıdır. İnanca görə, ağrı-acıdan, qada-bəladan, azar-bezardan xilas olmaq üçün hər kəs bayram tonqalının üstündən üç və ya yeddi dəfə hoppanmalı, bu sözləri deməlidir:

*Ağırlığım-uğurluğum*
*Tökülsün bu odun üstünə.*
*Sarılığın keçsin sənə,*
*Qızıllığın mənim olsun.*

Od çərşənbəsinin xarakterik xüsusiyyətlərindən biri də həmin gün qalanmış tonqal ətrafında yallı gedilməsidir. Bayram tonqalını, adətə görə, çərşənbənin səhəri də o başdan qalayıb yandırar, üzərindən atlanarlar.

İlaxır çərşənbədə subay qızlar bir yerə toplaşıb maraqlı ayinlər yerinə yetirərlər. Onlar qabaqlarına içi su ilə dolu yekə bir qab qoyub başına yığışarlar. Həmin "dilək qabı"nın içinə sırğa, yaxa sancağı, üzük, başqa bəzək əşyaları atarlar. Sonra üstünü əlvan bir yaylıqla örtərlər. Qızlar ya mahnı, ya şeir, ya da haxışta oxuya-oxuya niyyət edib gözlərini yumub növbə ilə qabın içindən bir əşya çıxararlar. Götürülən bəzək əşyası kimindirsə, deyilən şeir, haxışta, oxunan mahnının sözləri onun sonrakı taleyinə yozular. Beləcə, qabın içindəki əşyalar qurtarana qədər bu ayin davam etdirilər.



*"Novruz xonçası" Rəssam Ülviyyə Həmzəyeva*

İlaxır çərşənbənin mühüm adətlərindən biri də həmin axşamdan sonra da bayram əhval-ruhiyyəsini saxlamaqdır. Od çərşənbəsinin səhəri günü bütün el obaşdan ayağa qalxar. Hava işıqlanan kimi böyükdən-kiçiyə hamı su üstünə, bulaq başına gedər, müqəddəs saydıqları suya salam verib salavat çevirər, üstündən üç dəfə hoppanarlar. Pak çərşənbə suyundan içər, əl-üzlərini, pal-paltarlarını yuyarlar. Su qablarını çərşənbə suyu ilə doldurarlar. Bulağın içinə əl atıb bir-iki çınqıl götürüb doldurulmuş su bardaqlarının içinə atarlar. Evə qayıdıb gətirdikləri çərşənbə suyunu həyət-bacaya, meyvə ağaclarının dibinə, qapı ağzına, evin künc-bucağına səpərlər ki, aydınlıq olsun. İnanca görə, çərşənbə suyu mübarəkdir, müqəddəsdir. Bu su insanların günahlarını yuyar. Həmçinin həyət-bacadakı, evdəki natəmizliyi, uğursuzluğu, ruzisizliyi aradan qaldırar. Çərşənbə suyundan təzə gəlinlərin üzərinə səpərlər ki, uşağı tez olsun. Bu çərşənbə suyundan xəstələrə də içirərlər ki, şəfa tapsınlar, sağlıqlı olsunlar. Su üstünə getməyən uşaqları hökmən bulağa göndərərdilər, yaxud da gətirdikləri sudan onlara içirər, üstlərinə çiləyərdilər. Götürdükləri çərşənbə suyundan xəmirə (maya) tutarlar və bu xəmirəni illik saxlayardılar ki, evə ruzi-bərəkət gəlsin. Çərşənbə günü bulaqdan gətirilən suyun içindəki çınqıllar da atılmır. İçilən su qablarının içinə atılıb ta gələn axır çərşənbəyədək saxlanılar. Həmçinin səhər tezdən davarları (qoyun-quzu, keçi) çərşənbə suyuna ötürərlər ki, heyvanlar da bu saf sudan içib salamat, artımlı olsunlar.

Bu əziz günləri el gəzintidə olar. Hamı bir-birinə pay tutar, bayram donluğu aparar. Bayram günləri sübhdən hər kəs bayram görüşünə gedər. Hər kəs əzizlərini ziyarət edər. Xüsusən tayfanın ağbirçək və ağsaqqallarına baş çəkilər, onlara bayram sovqatı aparılar. Bu, elə əziz bayramdır ki, el adətincə hər kəs yad edilməlidir. İstər yaxın, istərsə də uzaq qohum və ya qonşu, dost, tanış-biliş olsun, hər evin qapısı açılmalıdır.

*Ağzı xeyir-dualı nənə-babalarımızın, ulularımızın Od çərşənbəsindən nur alan "Ocağın bərəkətli olsun!", "Ocağın sönməsin!", "Ocağına nur çilənsin!" alqışları bu gün də dilimizin əzbəridir. Biz də əziz bayramımızda bu el alqışlarına qoşularaq diləyirik ki, xalqımızın pak ruhundan od alan ocağımız daha da gur şölələnsin! Ulu Tanrı ocağımızdan odu, süfrələrimizdən ruzi-bərəkəti əskik etməsin, bütün arzu-diləklərimiz çin olsun! El-obamızda bayram, zəfər tonqalları alovlansın hər zaman! Bu bahar özü ilə xoş müjdələr gətirsin! İlaxır çərşənbəniz mübarək!*

**Gülnarə ABBASOVA**
*Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin*
*Qıvraq qəsəbə filialının müdiri*

# Od yanmasa, ocaq qaynamaz

*Xalqımızın od-ocaq-atəşlə bağlı təsəvvür sistemi zəngin tarixi köklərə malikdir. Od-ocaq inkişafın, mədəniyyətin təkanverici qüvvəsi kimi göstərilməklə qədim Şərq təqvimlərində özünəməxsus yer alıb.*



Tarixi qaynaqlara görə, insanın təbiət üzərində ilk qələbəsi olan od onun şüurunda və həyatında böyük dəyişikliklər yaradıb. İnsanlar odu sönməyə qoymayıb, yaşadıqları mağaraların tonqallarını həmişə yanılı saxlayıb, özlərini təhlükədən qoruya biliblər. Bununla da onlar zamanla oturaq həyata keçərək bir ailə kimi formalaşa, öz ocaqlarını binə edə biliblər. Odun beşiyi hesab edilən "ocaq" sözü türkcə yurd, Vətən, nəsil mənalarında da işlənir. Həmçinin qədim türk mifologiyasında Od Ata və Od Ana obrazı geniş yer tutur. Atəş tanrısı kimi mənalandırılan Od Ata və Od Ana evlərdəki və çadırlardakı ocaqları və atəşi qoruyur, onu sönməyə qoymurdular. Bu həm də onu göstərir ki, qədim türklərdə atəş müqəddəs hesab edilib.

Odla bağlı bir sıra mifik təsəvvürlərin mənbəyi Qafqazla, məhz Azərbaycanla sıx bağlıdır. Vətənimiz təsadüfi olaraq "Odlar diyarı" adlandırılmır. Həmin ad bir tərəfdən bu ərazidə eradan çox əvvəl yaşayan əhalinin əksəriyyətinin atəşpərəst olması, onların oda tapınması ilə bağlıdırsa, digər tərəfdən də bu ərazidə yaşayan qədim türkdilli qəbilənin adı ilə əlaqəlidir. "Azər" sözünün özü də "ər kişi", "ər oğlu", "od qoruyan" mənalarında ifadə olunur. Araşdırmalara əsasən demək olar ki, Azərbaycan-oğuz türklərinin qədim kitabı olan "Kitabi-Dədə Qorqud"dakı Dədə Qorqud obrazının adında da odla bağlı məqamlar vardır. "Dədə" sözü türklərdə bir nəslin, tayfanın sələfi, tərbiyə edən, ağla-kamala çatdıran ataya deyilirsə, Qorqud sözündəki "qor" od, "qut" isə xoşbəxtlik mənalarını ifadə edir.

Qədim vaxtlarda da, bu gün də insanlar od-atəş hami ruhunun qeyri-adi güc-qüdrətinə, şər qüvvələrə, düşmənə üstün gəlməsi, yenilməzlik-məğlubedilməzlik keyfiyyətinə inanıblar. Müxtəlif səbəblərdən qorxu, stress yaşamış adamın qorxuluğunu götürmək üçün bir stəkan soyuq suya yanar köz atıb həmin suyu qorxan şəxsə içirmək, eləcə də həmin adamı pir-ocaqlara aparıb "çilədağ" etmək yolu ilə sağaltmaq od-atəşin "şəfaverici gücü"nə, xilasediciliyinə olan inamdan irəli gəlib. Od həm də insanı yaşadığı yerə – yurda, el-obaya bağlayan ünsür kimi qiymətlidir. Qədim zamanlardan odsevər əcdadlarımız bütün el şənliklərini, toy-bayram büsatlarını alovla-tonqalla rövnəqləndirib, evlərdə, eyvanlarda çıraqlar yandırıb, gəlin köçən qızların yoluna çıraq tutublar. Odla bağlı uzaq keçmişdən yadigar qalan bu kimi adət və ənənələr bu gün də bir çox bölgələrimizdə icra edilir.

İnsanlarda oda sevgi, inam o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içib, alqış və qarğışlarda belə, odu köməyə çağırıblar. "Oda dərdini deyən xeyir aparar", "Ocaq sönməyən yerdə məskən salarlar", "Odsuz ocaq olmaz", "Od düşdüyü yeri yandırar", "Oda pənah aparanın ocağı sönməz", "Çıraq yeri qibləyə olan ev uğurlu olar", "Od imandır", "Od yanmasa, tüstü çıxmaz","Od hisli olarsa, uzaqdan qonağın gələcək", "Ocaqda kül titrəyəndə od xeyrə titrəyir", "Ocaq dağıdanın ocağı dağılar", – deyərlər. "Od haqqı!", "Ocaq haqqı!", "Ocağa and olsun!", "Ocağın bərəkətli olsun!", "Ocağın odlu olsun, qazanın qaynar" kimi folklor nümunələri oda inam və etiqaddan yaranıb.

İnanca görə, od həm də işıqlı sabah, xeyir-bərəkət rəmzi idi. Ona görə də əcdadlarımız hündür bir təpənin üstündə tonqallar qalamaqla sübh tezdən Günəşi qarşılayar, həm də tonqaldan məşəl götürüb evindəki ocağa od salar, şadlıq məclisləri təşkil edərdilər. İnsanlar Günəşi, odu, atəşi əzizləyir, onun müqəddəsliyinə inanır, bununla da Günəşin al şəfəqlərinin təbiəti, suyu, torpağı tez isidəcəyinə, onlara bolluq-bərəkət, xoşbəxtlik, firavanlıq bəxş edəcəyinə inanırdılar. Zamanla milli məişətdəki od-ocaq Qobustan qayaüstü rəsmlərində də özünə yer alıb. Bu da türkdilli xalqların mifik dünyagörüşündə Günəş-Od-Atəş silsiləsinin əhəmiyyətini bir daha təsdiqləyir.

İlaxır çərşənbə axşamı tonqal qalanması və həmin odun-atəşin üstündən atılaraq "ağırlığım-uğurluğum tökülsün bu odda yansın" deyilməsi də qədimdə insanların icra etdiyi ənənələrin davamı kimi geniş yayılıb. Ocağın üstündən atılan insanlar öz ağrı-acısını, dərd-bəlasını, sıxıntılarını oda töküb yandırır, odun gücü, qüvvəsi ilə xəstəlikdən, çətinlikdən xilas olacağına inanırlar. Tonqal çatılması həm də təbiətin oyanması, yurdumuza baharın-yazın qədəm qoymasının başlanğıcı hesab edilir.

*Ulularımızın belə bir deyimi var: "Ocaq qaynayarmı od yanmasa?" Bizlərin də əziz bayram günündə arzumuz budur ki, ocağınız daim yanar olsun, odunuz heç zaman sönməsin!*

**Güntac ŞAHMƏMMƏDLİ**

# Bayram ovqatlı yarmarka

***Artıq xalqımız müqəddəs bayramlarımızdan biri sayılan Novruzu qarşılamağa hazırlaşır. Hər bir ailə çalışır ki, bayramda süfrəsi bol olsun. Bu məqsədlə insanlar üz tuturlar bazarlara. Bazarlarımızda da ilin bütün vaxtlarında olduğu kimi, yenə də bolluq müşahidə edilir. Naxçıvan şəhərində ənənə halını alan, bayramqabağı yarmarkalar bu əziz bayramı da çeşid-çeşid nemətlərlə süfrələri bəzəməyə imkan verir.***






Bayram ərəfəsində ötən şənbə günü növbəti yarmarkanın təşkil olunmasında da məqsəd şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçılara seçim imkanlarının yaradılması, süni qiymət artımının qarşısının alınmasından ibarətdir.

Həmin gün Naxçıvan şəhərindəki Mərkəzi bazarda bizim də üz tutduğumuz yarmarkaya gələnlərin ardı-arası kəsilmirdi. Hiss olunurdu ki, sakinlər neçə illərdir, mütəmadi olaraq keçirilən belə tədbirlərdən xeyli razıdırlar. Bunu yarmarkaya üz tutanların çöhrələrindən də duymaq çətin deyildi. Çünki onlar keyfiyyəti ilə seçilən yerli məhsulları buradan ucuz qiymətə ala bilirdilər. Yarmarkada istehlakçılara kənd təsərrüfatı məhsulları ilə yanaşı, digər ərzaq malları da təklif olunurdu. Sakinlər yarmarkada müxtəlif ərzaq və kənd təsərrüfatı mallarını bazardakı qiymətlərlə müqayisədə daha ucuz əldə edə bilirdilər.

Muxtar respublikamızın müxtəlif yerlərindən yarmarkaya gətirilən məhsullar həm keyfiyyəti, həm də qiymətinin ucuzluğu ilə insanların bayram tələbatlarını ödəyir.

Burada yaradılmış şəraitlə yaxından tanış olduq. Gördüklərimiz muxtar respublikanın iqtisadi mənzərəsini əks etdirmək baxımından insanda xoş duyğular oyadırdı. Müşahidə etdiyimiz qələbəlik insanların təşkilatçılıqdan xeyli razı olduqlarını göstərirdi. Yarmarkaya məhsul gətirənlərin və alıcıların bir neçəsi ilə görüşüb həmsöhbət olduq.

Naxçıvan şəhər sakini, təqaüdçü Validə Məmmədova bildirdi ki, bu tədbir bütün şəhər sakinlərinin ürəyincədir. Bayram üçün almaq istədiyimiz məhsulların hamısı burada var. Qiymətlər də mağazalardakı qiymətlərdən aşağıdır. Əsas məsələ ondadır ki, məhsulların hamısı yerli istehsaldır. Deməli, builki Novruz bayramında da süfrələrimizin bəzəyi öz məhsullarımız olacaq.

Daha bir alıcı Fatma Abbasova isə bildirdi ki, muxtar respublikamızın son illərdəki inkişafı həyatımızın bütün sahələrində özünü göstərir. İllər əvvəl bayrama hazırlaşarkən xeyli çətinliklərlə üzləşirdik. Arzuladığımız məhsulları tapıb ala bilməyəndə isə həm qonağın, həm də uşaqların yanında üzüqara olurduq. Sağ olsun, dövlətimiz. Artıq heç bir çətinlik çəkmədən yarmarkadan bayram üçün istədiyimizi almaq imkanı yaradılıb.

Muxtar respublikanın ən böyük rayonu olan Şərur rayonunun Mahmudkənd sakini, təxminən, yarım hektar sahədə alma ağacı əkərək kiçik təsərrüfatını quran Nicat Məmmədov bu şəraiti yaradanlara minnətdarlığını bildirərək vurğuladı ki, qiymətin ucuzluğu həmin məhsulların yarmarkaya çıxarılmasında heç bir problemin olmaması ilə bağlıdır. Burada istehsalçılardan rüsum alınmır. Onlar lazımi avadanlıqlarla təmin olunurlar. Bütün bunlar alıcı və satıcıların ürəyincədir. Mən çox minnətdaram ki, yarmarkaya məhsul gətirən torpaq mülkiyyətçilərinə hərtərəfli şərait yaradılıb. Buradakı səliqə-sahman da satıcı və alıcıların ürəyincədir. Yarmarkada məhsullar bazar qiymətindən 15-20 faiz ucuz təklif olunur. Bizim üçün yaradılan şəraitə görə bir daha minnətdarlığımı bildirirəm.

Şahbuz rayon sakini Fəxrəntac Bağırova isə qeyd etdi ki, bu yarmarkalarda insanlar nəinki meyvə-tərəvəzlərə, həmçinin toyuq, hinduşka, quzu ətindən hazırlanmış qovurmalara, qurudulmuş göyərtiyə də maraq göstərirlər. Fəxrəntac xala öz həyətyanı sahəsində yetişdirdiyi pencərləri, dağlardan topladığı və qurutduğu yabanı bitkiləri satışa çıxarmışdı. O deyir ki, alıcılar daha çox məzrə, nanə, reyhan, şüyüd, keşniş qurusunu alırlar. Onlar yurdumuzun səfalı havasında, təmiz torpağında bitən bu bitkilərdən uzaqda yaşayan qohum-əqrəbalarına da sovqat göndərirlər.

Fəxrəntac Bağırova artıq 2 ildən çoxdur ki, bu məhsulları yarmarkaya çıxarır, alıcısı isə, necə deyərlər, başının üstündədir.

Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan Ramidə Rüstəmova da ailə təsərrüfatı sahibidir. O, satışa müxtəlif şirniyyat növləri çıxarıb. Deyir ki, münbit torpağımız və dövlət qayğısı bizi öz elimizə, obamıza bağlayıb. İndi zəhmət çəkən hər kəs bəhrəsini görür. Dövlətimiz bizim yaxşı dolanışığımız üçün hər cür şərait yaradıb. Məhsulumuzu istədiyimiz kimi satır, ailə büdcəmizin gəlirini ildən-ilə artırırıq. Bu cür yarmarkaların təşkili hamımızın ürəyincədir.

Qeyd edək ki, həmin gün yarmarkaya muxtar respublikanın, ümumilikdə, 100-dən çox ailə təsərrüfatı, 50-yə yaxın sahibkarlıq subyekti tərəfindən müxtəlif çeşidli məhsullar çıxarılmışdı.

Yarmarka bayram günlərində də davam etdiriləcək.

**✍ Telli MƏMMƏDOVA**

## Yaz-tarla işlərinə hazırlıq davam etdirilir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi 2020-ci ilin fevral ayında öz fəaliyyətini illik iş planının və Dövlət proqramlarının icrası istiqamətində həyata keçirmişdir. Belə ki, nazirliyin mütəxəssisləri tərəfindən torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı başçılarının iştirakı ilə payızlıq taxıl sahələrinə mineral gübrələrin iki mərhələdə verilməsinin əhəmiyyəti, kartof sahələrinin əkinə hazırlanması, keyfiyyətli toxum materiallarından istifadə etməklə yüksək məhsuldarlığa nail olunması, toxumun dərmanlanması, əkindən qabaq torpaq analizinin aparılması mövzularında seminar-müşavirələr keçirilmişdir. Taxıl, meyvə və üzüm bağlarında zərərvericilərə qarşı kompleks mübarizə tədbirlərinin aparılması qaydaları, yaz-tarla işlərinə hazırlıq və aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə aparılmasının məhsuldarlığa təsiri barəsində maarifləndirici tədbirlər davam etdirilmişdir. Kənd təsərrüfatında əl əməyinin yüngülləşdirilməsi və çəkilən xərcin azaldılması üçün kənd təsərrüfatı texnikaları və aqreqatlarının gücündən səmərəli istifadə edilməsi tövsiyə olunmuşdur.

Akademik Həsən Əliyev adına "Araz" Elm İstehsalat Birliyində Naxçıvan Dövlət Universitetinin Torpaqşünaslıq və aqrokimya ixtisasının tələbələrinə praktik dərslər keçilmişdir. Birliyin Aqrokimya torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən Kəngərli rayonunun Böyükdüz, Xıncab və Təzəkənd kəndlərinin 44 min 53,8 hektar kənd təsərrüfatına yararlı sahələrindən 332 torpaq nümunələri götürülmüş, tərkibindəki qida maddələrinin miqdarını müəyyənləşdirmək üçün kimyəvi analizlər aparılmış, analizlərin nəticələrinə uyğun olaraq qida maddələri ilə təmin olunma kartoqramları Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun əməkdaşları tərəfindən hazırlanaraq müvafiq kənd icra nümayəndəliklərinə verilmişdir.

Heyvandarlıqda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, süni mayalandırma tədbirlərinin davam etdirilməsi və heyvanların zoobaytar qaydalara uyğun yemləndirilməsi istiqamətində maarifləndirmə işləri davam etdirilmiş, arıçıların yaz aylarında aparacaqları tədbirlər onların diqqətinə çatdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan mətbəxi*

# Novruzun dadlı və faydalı təamı –




*Daha bir bahar bayramının astanasındayıq. Yurdumuzda ılıq nəfəsini duyuran yazın gəlişi əsrlər boyunca xalqımız tərəfindən bayram əhval-ruhiyyəsi, Novruz ənənələri ilə qarşılanır. Novruzun özünəməxsus adət-ənənələri və simvolları həyat tərzimizə, məişətimizə hopub, bu gün də qorunub yaşadılır.*

Təbii ki, Novruz bayramı dedikdə ilk ağıla gələn məhz səmənidir. Elə ki novruzqabağı çərşənbələr mübarək qədəmini yurdumuzun bərəkətli torpaqlarına basdı, nənə-analarımız, qız-gəlinlərimiz qışdan seçib saxladıqları buğdanı bir nimçədə cücərdərlər. Bir neçə həftə ərzində boy atan, qırmızı lentlə bəzədilmiş yamyaşıl səməni bayram xonçasının tən ortasında öz yerini alar. Baharın yurdumuza qədəm qoyduğu ərəfədə hara üz tutsan, hansı qapıdan içəri girsən, səni ilk qarşılayan səmənili xonça olacaq.

Novruz şənlikləri başa çatdıqdan sonra saralmış səmənilər natəmiz yerə atmaz, axar suya axıdar, həyət-bacadakı toyuq-cücənin qarşısına qoyarlar. Evlərimizin yaraşığı olan minlərlə səməninin bayramdan sonrakı "həyatı" beləcə başa çatar.

Ulularımız isə səmənilərdən təkcə süfrələrin bəzəyi kimi yox, həm də ləziz təamı kimi istifadə ediblər. Bəlkə də gənclərimizin bir çoxuna bu ad tanış deyil, amma səməni halvası bayram süfrələrinin ən dadlı və faydalı qidası kimi ulularımızdan bizə yadigar qalıb. Bəs səməni halvası necə hazırlanır və onun nə kimi faydaları vardır?

Qədim adət-ənənələrimizin ən çox qorunub saxlanıldığı Ordubad rayonunda bu təamın sorağına düşdük. Tivi kənd sakini, 90 yaşlı Tutu Quliyeva bildirdi ki, bu yaşıma gəlmişəm, yaz nemətlərinin heç birinə bənzəməyən o dad, hələ də damağımdadır. Ona görə də səməni halvasının ocağımızdan itib-batmasını istəməmişəm. Qızlarıma, gəlinlərimə bu ləziz təamın hazırlanmasını öyrədib aşılamışam ki, bu gözəl ənənəmiz itib batmasın.

Tutu nənə onu da dedi ki, səməni hər ocaqda göyərməz. İnanca görə, səməni halal ruzi ilə açılan süfrələrdə boy atar. Fevral ayının sonlarında, yəni Boz ay başlayanda buğdanın ən yaxşısını seçib tər-təmiz yuyuruq. Sonra bir nimçənin üzərinə yayıb üstünə təmiz tənzif çəkərək Günəş hənirtisi dəyən yerə, pəncərələrin qabağına qoyuruq. Hər gün tənzifin üzərinə su çiləməklə onu cücərdirik. Artıq martın əvvəlində buğda çırtıb göyərir. Süfrəmizin bəzəyi olacaq səmənini becəririk ki, daha da boy atsın.

Halva bişirmək üçün yenicə cücərmiş səmənidən istifadə edirik. Buğdalar çox yaşıllaşmamış onu həvəngdəstədə yaxşıca əzib suyunu çıxardırıq. Tənziflə süzülən həlimi və şirəni qazana tökür, üzərinə soyuq su, buğda unu əlavə edib bulayaraq unu açırıq. Şirə bərkiyəndə üzərinə qaynar su töküb, bişənə yaxın qapağı örtüb ocağı söndürürük. Hazır olan qırmızı rəngli şirəyə el arasında səməni hörrəsi deyirlər. Səməni halvası məhz bu hörrədən hazırlanır.

Səməni halvasının müqəddəs nemət hesab edildiyini dilə gətirən Tutu nənə dedi ki, səməni hörrəsini nəzir edib bişirərdilər. Bişəndən sonra qazanın qapağını örtür, üzərinə güzgü, daraq və başqa bəzək əşyaları qoyardılar. İnanca görə, Həzrəti Fatimeyi-Zəhra gəlib saçını darayacaq, özünə bəzək verəcək, nəzir edənə xeyir-dua edəcək ki, bu qazan bərəkətli olsun. Deyirlər, bu qazan Fatimeyi-Zəhradan qalıb. Halva hazırlanarkən mərasimə qohum-əqrəbalar, qonşular, tanışlar da dəvət olunurlar. Qazanın qapağını açanda salavat çevirirlər. Kənddə xəstə varsa, ilk növbədə, bu hörrədən ona da pay tuturlar.

Elə ki səməni hörrəsi hazır oldu, ona un əlavə edilərək xəmir yoğurulur. Xəmirdən hissə-hissə kəsərək teştdə və ya böyük tavada qaynar yağın içinə salınır və tez-tez qarışdırılır. Bulama işini gərək heç dayandırmayasan, yoxsa dibi yanar. Azacıq qazmaq tutan kimi onu çevirib tikələrə parçalamaq lazımdır. Ta ki tamam ovulanadək. Daha sonra qazan odun üzərindən götürülür, ona doşab, istiot, zəncəfil, mixək, razyana, darçın kimi ədvalar vurulub qarışdırılır. Soyuyanda bir də Naxçıvanın dillər əzbəri olan cəviz ləpəsi əlavə edilir. Əsrlərin yadigarı, bayram süfrəsinin dadlı neməti və can dərmanı səməni halvası beləcə hazırlanır.

Bir az da səməni halvasının faydalarından söhbət açaq.

Xalq təbabətində deyilir ki, əsl səməni halvası qan dövranını yaxşılaşdırır, insanın əhval-ruhiyyəsini yüksəldir. Müasir tibdə də qeyd edilir ki, toxumlar cücərməyə başladıqda onlarda güclü həyat enerjisi oyanır. Bioloji aktiv maddə, vitamin, mikroelementlərlə zəngin olan cücərtilər insan orqanizmi üçün çox faydalıdır. Bu baxımdan cücərdilmiş buğdanın və müxtəlif bitki toxumlarının qida kimi qəbul edilməsi orqanizmin ümumi gümrahlığına səbəb olur, tonusu artırır, ürək-damar, əsəb, mədə-bağırsaq sisteminin fəaliyyətini gücləndirir. Belə cücərtilərdən ibarət dieta artıq çəkidən xilas olmağa, orqanizmi gücləndirməyə, dişləri və damaqları möhkəmləndirməyə kömək edir. Cəmi bir neçə gün cücərdildikdən sonra toxumların vitamin tərkibi dəyişir, infarktla mübarizədə aparıcı qüvvə kimi vacib olan vitaminlərlə zənginləşir.

*Əziz oxucularımız, Novruz süfrələrinin ləziz təamı, dadlı, bərəkətli və orqanizmə faydalı səməni halvası milli mətbəximizin yaddan çıxan, az istifadə olunan təamları sırasındadır. Gəlin onun faydalarını və milli təfəkkürümüzdəki yerini daha geniş təbliğ edək. Həm milli mətbəximizin bu gözəl adəti qorunub saxlanılsın, həm də canımız sağlam və gümrah olsun.*

**✍ Gülcamal TAHİROVA**


### İtmişdir

Naxçıvan şəhəri, 11-ci məhəllə 1 ünvanında yaşayan Əsgərov Əli Mütəllim oğlunun adına olan 13697 inventar nömrəli texniki pasport və MH-0046548 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, 11-ci məhəllə 1ª ünvanında yaşayan Əsgərov Əli Mütəllim oğlunun adına olan 14480 inventar nömrəli texniki pasport və MH-0016785 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Cəfərov Musa Arzu oğlunun adına olan VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Kültəpə kənd sakini Əliyeva Tavat Seyfulla qızının adına olan JN-250ᴬ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 272